**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RƏYASƏT HEYƏTİ**

# QƏRAR

№ 2/26

Bakı şəhəri 15 fevral 2017-ci il

AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunda
İctimaiyyətlə əlaqələr şöbəsinin yaradılması haqqında

AMEA Rəyasət Heyətinin 29 iyun 2016-cı il tarixli 9/6 nömrəli "AMEA-nın elmi müəssisə və təşkilatlarında ictimaiyyətlə əlaqələr üzrə müvafiq strukturların yaradılması haqqında" qərarına əsasən, AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunda İctimaiyyətlə əlaqələr şöbəsinin yaradılması zərurəti meydana çıxmışdır.

Qeyd olunanlarla bağlı AMEA-nın İctimai Elmlər Bölməsinin vəsatətini nəzərə alaraq, Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALIR:**

1. AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunda daxili imkanlar hesabına və mövcud ştat sayı daxilində İctimaiyyətlə əlaqələr şöbəsi yaradılsın.
2. AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun İctimaiyyətlə əlaqələr şöbəsinin Əsasnaməsi təsdiq edilsin (əlavə olunur).
3. Qərarın icrasına nəzarət AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyliyə həvalə edilsin.

AMEA-nın prezidenti akademik Akif Əlizadə

AMEA-nın akademik-katibi akademik Rasim Əliquliyev

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI RƏYASƏT HEYƏTİ PROTOKOL ŞÖBƏSİ MƏRKƏZİ APARAT